*Əliyev Ə.T.*

# XIX -XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ GÜRCÜSTAN AZƏRBAYCANLILARININ SAY TƏRKİBİ HAQQINDA

Ailə və ailə məişətinin tədqiqi etnoqrafiya elminin aktual problemlərindən biri kimi, mühüm elmi, praktiki və nəzəri əhəmiyyətə malikdir. Belə ki, bu problemin kompleks şəkildə araşdırılması xalqın tarixi, mənşəyi, mədəniyyəti ilə bağlı bir çox qaranlıq fikir, mülahizə və münasibətlərə aydınlıq gətirilməsinə, həlli vacib olan məsələlərin işıqlandırılmasına yardım etmiş olur. Məhz bu baxımdan Gürcüstan azərbaycanlılarının ailə və ailə məişəti məsələlərinin öyrənilməsinin böyük elmi əhəmiyyət kəsb etdiyini bir daha yəqin etmiş oluruq.

Məlumdur ki, insan cəmiyyətinin özəyini ailə təşkil edir. Belə olduğu halda, cəmiyyəti «tarixi kateqoriya» olan ailəsiz təsəvvür etmək qeyri-mümkündür.

Xalqın maddi və mənəvi həyatıyla sıx qarşılıqlı təmasda olan ailə daimi hərəkətdə, tərəqqidədir. Cəmiyyətin inkişafı, ictimai-iqtisadi münasibətlərin dəyişməsi ailəni də dəyişdirir və mövcud dövrə uyğun olaraq formalaşdırır.

Ailə və ailə məişəti məsələlərində ailənin say tərkibi, nigah, nişan-bəlgə, toy adətləri, uşaqların tərbiyəsi, ağsaqqala-ağbirçəyə hörmət, dəfn-yas mərasimləri və s. özünəməxsus yer tutur. Etnoqrafik ədəbiyyatda qeyd olunduğu kimi, bu adət və ənənələr, uşaqların tərbiyəsi, ağsaqqala-ağbirçəyə hörmət, mərasimlər, «bir tərəfdən yeni ailənin yaranmasını təmin edən xarakterik milli şərtlər kompleksidirsə, digər tərəfdən də hər etnik varlığın mənəvi etnik və estetik həyat duyumunu özündə əks etdirən mənəviyyat sistemidir». (5, 170)

Bizim məqsədimiz ailə və ailə məişəti məsələlərindən biri olan ailənin say tərkibi barədə məlumat vermək oluduğundan, burada bu və ya digər mərasimlərdən, adət-ənənələrdən söhbət açmayacağıq.

XIX – XX əsrə aid materiallarda Gürcüstan azərbaycanlılarının ailə üzvlərinin say tərkibi barədə məlumata rast gəlmirik. Burada yalnız ailələrin sayı və adamların ümumi miqdarı göstərilir.

1832-ci ilin sayımına görə Borçalıda 145 kəndin və 4092 tüstünün evin) olduğu qeyd edilir. Həmin sayımda burada təkcə kişi cinsindən olan 8479 nəfər tatarların (azərbaycanlının-Ə.Ə.), 3634 erməninin, 767 yunanın, 669 gürcünün, 213 almanın yaşadığı bildirilir.3) Həmin dövr Borçalıya sayılan Qarayazıda mövcud olan kişi cinsi barədə bir kəlmə də olsun danışılmır.

1865-ci ilin sayımı isə Qarayazının kəndlərində olan evlərin və əhalinin miqdarını aşağıdakı kimi göstərmişdir:

Soğanlıq 19 ailə-120 nəfər, Qaracalar 69 ailə – 498 nəfər, Ağtəhlə 106 ailə – 1064 nəfər, Qaratəhlə 29 ailə – 333 nəfər, Dəmirtəpə 9 ailə – 82 nəfər, Məşədiabad 15 ailə – 49 nəfər, Qruzinovka 15 ailə – 49 nəfər, Gültəpə 20 ailə – 149 nəfər, Hacılar 104 ailə – 898 nəfər, Tabahlı 78 ailə – 706 nəfər, Gölkənd 46 ailə – 265 nəfər, Sərtçala – Muğanlı 74 ailə – 364 nəfər (4, 67).

Hesablama aparsaq görərik ki, həmin dövrdə orta rəqəmlə Soğanlıq kəndində hər ailədə (6,3), Qaracalarda (7,2), Ağtəhlədə (10), Qaratəhlədə (11), Dəmirtəpədə (9), Məşədiabadda (3,2), Qruzinovkada (5,7), Sərtçala – Muğanlıda isə (4,9) nəfər yaşayırdı.

1870, (1, 222, 224, 226, 228, 232, 234, 236, 240, 242) 1886 və 1926-cı (2, 69-70,

92-94) ilin əhali sayımına görə Gürcüstan azərbaycanlıları türkləri) yaşayan kəndlərdə əhalinin (kişili-qadınlı) sayı və ailə tərkibi 1-ci cədvəldəki kimi olmuşdur.

| № | Kəndlər | 1870 | | | 1886 | | | 1926 | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | *ailə sayı* | *üm əh. sayı* | *ailə tərkibi* | *ailə sayı* | *üm. əh. sayı* | *ailə tərkibi* | *ailə sayı* | *üm. əh. sayı* | *ailə tərkibi* |
| 1 | Hamamlı | 50 | 450 | 9 | 40 | 325 | 8,1 | 127 | 858 | 7,2 |
| 2 | Əngirəvan | 9 | 35 | 3,8 | 5 | 61 | 12,2 | 21 | 133 | 6,3 |
| 3 | Bəzəkli | 15 | 101 | 6,7 | 17 | 163 | 9,5 | - | - | - |
| 4 | Canbaxça | 70 | 469 | 6,7 | 32 | 335 | 10,4 | - | - | - |
| 5 | Carayer | 13 | 88 | 6,7 | - | - | - | - | - | - |
| 6 | Qədirqulu | 8 | 54 | 6,7 | 6 | 64 | 10,6 | - | - | - |
| 7 | Məmişli | 20 | 224 | 11 | 19 | 131 | 6,8 | 64 | 362 | 5,6 |
| 8 | Mahmudlu | 2 | 14 | 7 | - | - | - | - | - | - |
| 9 | Y.Oruzman | 30 | 508 | 16,9 | 20 | 198 | 9,9 | 82 | 490 | 5,9 |
| 10 | A.Oruzman | 8 | 54 | 6,7 | 7 | 84 | 12 | 45 | 273 | 6,0 |
| 11 | Səfərli | 20 | 134 | 6,7 | 13 | 89 | 6,8 | 76 | 463 | 6,0 |
| 12 | Arıxlı | 137 | 918 | 7,5 | 99 | 855 | 8,6 | 306 | 1585 | 6 |
| 13 | Həsənxocalı | 21 | 141 | 6,7 | 22 | 162 | 7,3 | - | - | - |
| 14 | Əsmələr | 6 | 40 | 6,6 | 13 | 51 | 3,9 | 30 | 172 | 5,7 |
| 15 | Salıoğlu-Sisqala | 9 | 60 | 6,6 | 13 | 51 | 3,9 | 30 | 172 | 5,7 |
| 16 | Daşdıqullar | 25 | 168 | 6,7 | 24 | 136 | 5,6 | 40 | 184 | 4,6 |
| 17 | Baydar | 61 | 409 | 6,7 | 56 | 374 | 6,6 | 160 | 582 | 3,6 |
| 18 | B.Bəylər | 20 | 134 | 6,7 | 10 | 61 | 6,1 | 36 | 106 | 2,9 |
| 19 | K.Bəylər | 17 | 114 | 6,7 | 8 | 51 | 6,3 | 29 | 89 | 3,0 |
| 20 | Gültəpəli | 25 | 168 | 6,7 | 22 | 243 | 11 | 24 | 126 | 5,2 |
| 21 | Kürtlər | 93 | 613 | 6,5 | 59 | 492 | 8,3 | 167 | 556 | 3,3 |
| 22 | Lecbəddin | 60 | 422 | 7 | 49 | 346 | 7,0 | 95 | 546 | 5,7 |
| 23 | B.Muğanlı | 72 | 483 | 6,7 | 41 | 326 | 7,9 | - | - | - |
| 24 | Kirəc Muğanlı | 10 | 6,7 | - | - | - | - | - | - | - |
| 25 | Abdallı | 38 | 216 | 5,6 | 26 | 134 | 5,1 | 40 | 232 | 5,8 |
| 26 | Bolnis-Kəpənəkçi | 169 | 1403 | 8,3 | 122 | 1192 | 9,7 | 408 | 2257 | 5,5 |
| 27 | Cəfərli | 7 | 47 | 6,7 | 11 | 80 | 7,2 | 37 | 144 | 3,8 |
| 28 | Qışlaq | 12 | 81 | 6,7 | 16 | 77 | 4,8 | - | - | - |
| 29 | Mığırlı | 18 | 120 | 6,6 | 22 | 183 | 8,3 | 24 | 102 | 4,2 |
| 30 | Muşevan | 7 | 47 | 6,7 | 9 | 49 | 5,4 | 53 | 314 | 5,9 |
| 31 | Şlbilər | 9 | 60 | 6,6 | 11 | 59 | 5,3 | - | - | - |
| 32 | Görarxı | 270 | 1770 | 6,5 | 259 | 1156 | 4,4 | 325 | 2378 | 7,3 |
| 33 | İvanbəyli | 70 | 470 | 6,7 | 100 | 558 | 5,5 | 131 | 1050 | 8,0 |
| 34 | Arakol | 6 | 40 | 6,6 | - | - | - | - | - | - |
| 35 | Bəytəkər | 8 | 54 | 6,7 | 9 | 79 | 8,7 | 22 | 123 | 5,5 |
| 36 | Y.Güləver | 7 | 47 | 6,7 | 14 | 94 | 6,7 | 39 | 231 | 5,9 |
| 37 | A.Güləver | 7 | 47 | 6,7 | 11 | 116 | 10,5 | 28 | 153 | 5,4 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 38 | Darvaz | 72 | 483 | 6,7 | 55 | 532 | 9,6 | 208 | 1144 | 5,5 |
| 39 | Ciris | 2 | 14 | 7 | 7 | 73 | 10,4 | - | - | - |
| 40 | Zol-Güvəc | 21 | 141 | 6,7 | 30 | 134 | 4,4 | 91 | 474 | 5,2 |
| 41 | Kipircik | 2 | 14 | 7 | 4 | 29 | 7,2 | 15 | 120 | 6,8 |
| 42 | Musapirilər | 5 | 34 | 6,8 | 6 | 60 | 10 | 32 | 288 | 9 |
| 43 | Örmeşen | 14 | 92 | 6,5 | 16 | 205 | 12,8 | 67 | 487 | 7,2 |
| 44 | Əmbərovka | 14 | 94 | 6,7 | - | - | - | 21 | 133 | 6,3 |
| 45 | Kəpənəkçi-Dəmirçihəsənli | 61 | 409 | 6,7 | 49 | 360 | 7,3 | 135 | 480 | 3,5 |
| 46 | İlməzli | 18 | 120 | 6,6 | 15 | 120 | 8 | 41 | 240 | 5,8 |
| 47 | Qara Keşəli | 11 | 74 | 6,7 | 12 | 130 | 10,8 | 113 | 602 | 5,3 |
| 48 | Kosalı | 95 | 637 | 6,7 | 127 | 813 | 6,4 | 171 | 734 | 4,2 |
| 49 | Keşəli | 77 | 516 | 6,7 | 54 | 406 | 7,5 | 24 | 198 | 8,2 |
| 50 | Cücəkənd | 31 | 207 | 6,6 | - | - | - | - | - | - |
| 51 | İlməzli | 50 | 335 | 6,7 | 51 | 402 | 7,8 | - | - | - |
| 52 | Yırğançay | 80 | 536 | 6,7 | 60 | 440 | 7,3 | 174 | 1078 | 7 |
| 53 | Qaraqala | 31 | 208 | 6,7 | - | - | - | - | - | - |
| 54 | Soyuqbulaq | 25 | 168 | 6,7 | - | - | - | - | - | - |
| 55 | Təzəkənd | 26 | 175 | 6,7 | - | - | - | - | - | - |
| 56 | Boxçalar | 4 | 27 | 6,7 | - | - | - | 15 | 104 | 6,9 |
| 57 | Busqala | 25 | 168 | 6,7 | 11 | 149 | 13,5 | - | - | - |
| 58 | Y.Gödəkdağ | 16 | 108 | 6,7 | - | - | - | - | - | - |
| 59 | A.Gödəkdağ | 17 | 114 | 6,7 | - | - | - | - | - | - |
| 60 | Dunus | 8 | 54 | 6,7 | 10 | 92 | 9,2 | 26 | 195 | 7,5 |
| 61 | B.Kəmərli | 43 | 288 | 6,6 | - | - | - | - | - | - |
| 62 | Kəkman | 23 | 154 | 6,6 | - | - | - | - | - | - |
| 63 | B.Qarabulaq | 9 | 60 | 6,6 | 32 | 155 | 4,6 | - | - | - |
| 64 | İkiqapılı qarabulaq | 8 | 54 | 6,7 | 8 | 37 | 4,6 | - | - | - |
| 65 | K.Qarabulaq | 8 | 54 | 6,7 | 6 | 45 | 7,5 | - | - | - |
| 66 | Qızılkilsə | 23 | 154 | 6,6 | 14 | 211 | 15 | 88 | 588 | - |
| 67 | Məryəmli-Arıx | 23 | 154 | 6,6 | 18 | 137 | 7,6 | - | - | - |
| 68 | Qağma | 10 | 67 | 6,7 | 15 | 120 | 8 | - | - | - |
| 69 | Salamməlik | 8 | 54 | 6,7 | - | - | - | 29 | 158 | 5,4 |
| 70 | Tamazqulu-qul Hacılı | 25 | 168 | 6,7 | 30 | 355 | 5,5 | - | - | - |
| 71 | Tanziya-Tağılı | 8 | 54 | 6,7 | 6 | 69 | 11,5 | - | - | - |
| 72 | Şindilər-Kəpənəkçi | 19 | 127 | 6,6 | 15 | 178 | 11,8 | - | - | - |
| 73 | Şarşalet | 3 | 20 | 6,6 | - | - | - | 11 | 78 | 7,0 |
| 74 | Başkeçid Şulaveri | 9 | 60 | 6,6 | - | - | - | - | - | - |
| 75 | Yaqublu | 20 | 134 | 6,7 | 18 | 198 | 11 | 59 | 377 | 6,3 |
| 76 | Saja | 20 | 134 | 6,7 | - | - | - | 87 | 476 | 5,4 |
| 77 | Ağaməmmədli | 53 | 355 | 6,6 | 15 | 60 | 4 | - | - | - |
| 78 | Baytallı | 11 | 74 | 6,7 | 13 | 36 | 2,7 | 19 | 51 | 2,6 |
| 79 | Bərəhli | 18 | 120 | 6,6 | 15 | 60 | 4 | - | - | - |
| 80 | Bəytərəfçi | 21 | 141 | 6,7 | 26 | 205 | 7,8 | 33 | 140 | 4,2 |
| 81 | Canəhmədli | 4 | 27 | 6,7 | 7 | 24 | 3,4 | 8 | 33 | 4,1 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 82 | Qasımlı | 63 | 422 | 6,6 | 72 | 522 | 7,2 | 140 | 688 | 4,9 |
| 83 | Qaçağan | 117 | 784 | 6,7 | 118 | 596 | 5 | 266 | 1246 | 4,6 |
| 84 | Quşçu | 8 | 54 | 6,7 | 15 | 88 | 5,8 | 29 | 90 | 3,1 |
| 85 | Təkəli | 13 | 87 | 6,6 | 14 | 62 | 4,4 | 150 | 495 | 3,3 |
| 86 | Ulaşlı | 22 | 148 | 6,7 | 25 | 80 | 3,2 | 70 | 258 | 3,6 |
| 87 | Xancığazlı | 15 | 101 | 6,7 | 21 | 86 | 4 | - | - | - |
| 88 | Çələbli-Yadigarlı | 17 | 114 | 6,7 | 24 | 114 | 4,7 | - | - | - |
| 89 | Körpülü | 65 | 436 | 6,7 | 37 | 311 | 8,4 | - | - | - |
| 90 | Ləmbəli | 60 | 402 | 6,7 | 45 | 288 | 6,4 | - | - | - |
| 91 | Hallavar | 20 | 134 | 6,7 | 25 | 128 | 5,1 | 38 | 129 | 3,3 |
| 92 | Candar | 27 | 177 | 6,5 | 29 | 184 | 6,3 | 93 | 366 | 3,9 |
| 93 | Kolayır | 28 | 187 | 6,6 | 25 | 257 | 10,2 | 82 | 430 | 5,2 |
| 94 | Qızılhacılı | 274 | 1836 | 6,7 | 237 | 1317 | 6,4 | 404 | 1888 | 4,6 |
| 95 | Güləvan | 4 | 27 | 6,7 | 7 | 39 | 5,4 | - | - | - |
| 96 | K.Muğanlı | 25 | 168 | 6,7 | 23 | 168 | 7,3 | 65 | 198 | 3,0 |
| 97 | Qırıxlı | 43 | 288 | 6,6 | 30 | 341 | 11,4 | 89 | 216 | 2,4 |
| 98 | Qullar | 55 3 | 369 | 6,7 | 52 | 294 | 5,6 | - | - | - |
| 99 | Şamamalı (Bəyazitli) | 12 | 81 | 6,7 | 12 | 57 | 4,6 | 20 | 56 | 2,8 |
| 100 | Umur | 32 | 215 | 6,7 | 45 | 230 | 5,1 | 53 | 175 | 3,3 |
| 101 | Mamay | 13 | 87 | 6,6 | 9 | 58 | 6,4 | 52 | 96 | 1,8 |
| 102 | Sadaxlı | 191 | 1280 | 6,7 | 153 | 1041 | 6,8 | 445 | 2033 | 4,5 |
| 103 | Xocornu | 2 | 14 | 7 | 12 | 70 | 5,8 | 148 | 172 | 1,1 |
| 104 | Ayrım | 20 | 134 | 6,7 | 24 | 318 | 13,2 | - | - | - |
| 105 | Araflı | 64 | 429 | 6,7 | 49 | 216 | 4,4 | 61 | 258 | 4,2 |
| 106 | Axıllələli | 14 | 94 | 6,7 | 46 | 292 | 6,3 | 42 | 182 | 4,3 |
| 107 | Axılmahmudlu | 26 | 174 | 6,6 | 28 | 125 | 4,7 | 44 | 194 | 4,4 |
| 108 | Dəmyə Görarxı | 17 | 114 | 6,7 | 12 | 70 | 5,1 | 56 | 340 | 6,7 |
| 109 | Qayaxocalı | 9 | 60 | 6,6 | 10 | 34 | 3,4 | 20 | 99 | 4,9 |
| 110 | Y.Saral | 27 | 181 | 6,7 | 39 | 114 | 2,9 | 61 | 267 | 4,3 |
| 111 | A.Saral | 71 | 476 | 6,7 | 55 | 223 | 4 | 81 | 320 | 3,9 |
| 112 | Seyidxocalı | 9 | 60 | 6,6 | 14 | 60 | 4,2 | 30 | 105 | 3,5 |
| 113 | İmirhəsən | 50 | 315 | 6,3 | 58 | 367 | 6,3 | | 104 | |
| 114 | B.Qoşaisə | 46 | 309 | 6,7 | 54 | 432 | 8 | - | - | - |
| 115 | K.Qoşaisə | 12 | 81 | 6,7 | 20 | 72 | 3,6 | - | - | - |
| 116 | Mollaəhmədli | 5 | 34 | 6,8 | 11 | 63 | 5,7 | 9 | 54 | 6 |
| 117 | Saraclı | 161 | 1079 | 6,7 | 143 | 1026 | 7,1 | 316 | 1438 | 4,5 |
| 118 | Şalbuzlu | 10 | 67 | 6,7 | 11 | 49 | 4,4 | 46 | 236 | 5,1 |
| 119 | Sarvan | 329 | 2204 | 6,6 | 299 | 1619 | 5,4 | 484 | 2493 | 5,1 |
| 120 | Dağ Qızılkilsə | 25 | 366 | 14,6 | - | - | - | - | - | - |
| 121 | Qamışlı | 0 | 508 | 16,9 | 24 | 163 | 6,7 | 72 | 509 | 7,0 |
| 122 | Lök Candar | 20 | 380 | 19 | - | - | - | 49 | 325 | 6,6 |
| 123 | Qoçulu | 30 | 201 | 6,7 | 22 | 216 | 9,8 | 76 | 383 | 5,0 |
| 124 | Faxralı | 170 | 1139 | 6,7 | 137 | 860 | 6,2 | 470 | 2321 | 4,9 |
| 125 | Dəmyə | - | - | - | 11 | 57 | 5,1 | - | - | - |
| 126 | Ayorta | - | - | - | 17 | 110 | 6,4 | - | - | - |
| 127 | Dağətəyi-Məmişli | - | - | - | 19 | 131 | 6,8 | - | - | - |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 128 | Qəmərli | - | - | - | 50 | 304 | 6 | 67 | 406 | 6,0 |
| 129 | Qaradaş | - | - | - | 20 | 162 | 8,1 | 11 | 68 | 6,1 |
| 130 | Gödəkdağ | - | - | - | 16 | 171 | 10,6 | 26 | 155 | 5,9 |
| 131 | Gəyliyən | - | - | - | 18 | 124 | 6,8 | 42 | 305 | 7,2 |
| 132 | Şüləver | - | - | - | 8 | 85 | 10,6 | 48 | nəfər | qatışıq |
| 133 | Ərcivan-Sarvan | - | - | - | 100 | 768 | 7,6 | 151 | 760 | 5,0 |
| 134 | Minasaz | - | - | - | 5 | 29 | 5,8 | - | - | - |
| 135 | Çulux-Qızılhacılı | - | - | - | 36 | 232 | 6,4 | - | - | - |
| 136 | Təcis | - | - | - | 45 | 372 | 8,2 | 96 | 466 | 4,8 |
| 137 | Gödəklər | - | - | - | 32 | 234 | 7,3 | - | - | - |
| 138 | Şüləver | - | - | - | 6 | 30 | 5 | - | - | - |
| 139 | Başkeçid | - | - | - | 1 | 4 | 4 | - | - | - |
| 140 | Soğanlıq | - | - | - | 40 | 269 | 6,7 | Ailələrin yox, təkcə əhalinin ümumi sayı verilib. | | |
| 141 | Ağtəhlə | - | - | - | 122 | 1091 | 8,9 | | | |
| 142 | Qaratəhlə | - | - | - | 67 | 655 | 9,7 | | | |
| 143 | Qaracalar | - | - | - | 86 | 563 | 6,5 | | | |
| 144 | Zirvit | - | - | - | 9 | 38 | 4,2 | | | |
| 145 | Gölkənd – Candar | - | - | - | 37 | 253 | 6,8 | | | |
| 146 | Qaratəpə | - | - | - | 19 | 63 | 3,3 | | | |
| 147 | Qacalar – Kosalı | - | - | - | 161 | 887 | 5,5 | | | |
| 148 | Qacalar-Nəzərli | - | - | - | 102 | 684 | 6,7 | | | |
| 149 | Məşədiabad | - | - | - | 1 | 9 | 9 | | | |
| 150 | Musavənd | - | - | - | 3 | 15 | 0,5 | | | |
| 151 | Sərtçala-Muğanlı | - | - | - | 99 | 637 | 6,4 | | | |
| 152 | Kosalar-Qarakənd | - | - | - | 27 | 250 | 9,2 | | | |
| | | | | | Qaraçöpdə | | | | | |
| 153 | Yor-Muğanlı | - | - | - | 76 | 463 | 6,4 | | | |
| 154 | Düzəyrəm | - | - | - | 19 | 130 | 6,8 | | | |
| 155 | Ləmbəli | - | - | - | 116 | 799 | 6,8 | | | |
| 156 | Keşəli | - | - | - | 67 | 366 | 5,4 | | | |
| 157 | Tüllər | - | - | - | 31 | 260 | 8,3 | | | |
| | | | | | Yenə də Borçalı qəzasında | | | | | |
| 158 | Daştəpə | - | - | - | - | - | - | 20 | 37 | 1,8 |
| 159 | Y.Qullar | - | - | - | - | - | - | 22 | 48 | 2,1 |
| 160 | A.Qullar | - | - | - | - | - | - | 32 | 104 | 3,2 |
| 161 | Mamğallı-Səbiryəkənd | - | - | - | - | - | - | 155 | 914 | 5,8 |
| 162 | Ağkörpü | - | - | - | - | - | - | 8 | 34 | 4,2 |
| 163 | Ağqula | - | - | - | - | - | - | 25 | 109 | 4,3 |
| 164 | Zirəkli | - | - | - | - | - | - | 4 | 17 | 4,2 |
| 165 | Mollaoğlu | - | - | - | - | - | - | 45 | 192 | 4,2 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 166 | Qırıxlı-Muğanlı | - | - | - | - | - | - | 50 | 207 | 4,1 |
| 167 | Hacıkəzli | - | - | - | - | - | - | 13 | 72 | 5,5 |
| 168 | İncəoğlu | - | - | - | - | - | - | 23 | 117 | 5,0 |
| 169 | Sarallar | - | - | - | - | - | - | 20 | 155 | 7,7 |
| 170 | Dəmirsu | - | - | - | - | - | - | 11 | 44 | 4 |
| 171 | Görücülər | - | - | - | - | - | - | 18 | 67 | 3,7 |
| 172 | Ağayurd | - | - | - | - | - | - | 79 | 290 | 3,6 |
| 173 | Araqala | - | - | - | - | - | - | 36 | 191 | 5,3 |
| 174 | Seneb | - | - | - | - | - | - | 8 | 36 | 4,5 |
| 175 | Qaratikən | - | - | - | - | - | - | 6 | 33 | 5,5 |
| 176 | Çürük Qəmərli | - | - | - | - | - | - | 11 | 40 | 3,6 |
| 177 | Dəmirli | - | - | - | - | - | - | 20 | 109 | 5,4 |
| 178 | Y.Qoşakilsə | - | - | - | - | - | - | 33 | 168 | 5,0 |
| 179 | A.Qoşakilsə | - | - | - | - | - | - | 68 | 371 | 5,4 |
| 180 | Y.Bəzəkli | - | - | - | - | - | - | 18 | 80 | 4,4 |
| 181 | A.Bəzəkli | - | - | - | - | - | - | 52 | 325 | 6,2 |
| 182 | Boğazkəsən | - | - | - | - | - | - | 13 | 22 | 1,6 |
| 183 | Dəllər | - | - | - | - | - | - | 31 | 253 | 8,1 |
| 184 | Axçingil | - | - | - | - | - | - | 3 | 11 | 3,6 |
| 185 | Başkeçid | - | - | - | - | - | - | 12 | 45 | 3,7 |
| 186 | Gəyliyən | - | - | - | - | - | - | 42 | 305 | 7,2 |
| 187 | Şindilər | - | - | - | - | - | - | 70 | 462 | 6,6 |
| 188 | Dağ Muğanlı | - | - | - | - | - | - | 45 | 355 | 7,8 |
| 189 | Saatlı | - | - | - | - | - | - | 40 | 295 | 7,3 |
| 190 | Armudlu | - | - | - | - | - | - | 23 | 112 | 4,8 |
| 191 | Göybulaq | - | - | - | - | - | - | 4 | 19 | 4,7 |
| 192 | Dağ Arıxlı | - | - | - | - | - | - | 41 | 290 | 7,0 |
| 193 | Dağ Qızılhacılı | - | - | - | - | - | - | 67 | 423 | 6,3 |
| 194 | Lager | - | - | - | - | - | - | 38 | 198 | 5,2 |
| 195 | Məmişlər | - | - | - | - | - | - | 20 | 113 | 5,6 |
| 196 | Mehdiağalar | - | - | - | - | - | - | 12 | 65 | 5,4 |
| 197 | Salamməlik | - | - | - | - | - | - | 33 | 183 | 5,5 |
| 198 | Saca | - | - | - | - | - | - | 87 | 476 | 5,4 |
| 199 | Soqutlu | - | - | - | - | - | - | 8 | 30 | 3,7 |
| 200 | Qarabulaq | - | - | - | - | - | - | 110 | 765 | 6,9 |
| 201 | Şahmarlı | - | - | - | - | - | - | 40 | 248 | 6,2 |
| 202 | Söyünkənd | - | - | - | - | - | - | 17 | 70 | 4,1 |
| 203 | Gəldiqar | - | - | - | - | - | - | 33 | 231 | 7 |
| 204 | Minaskənd | - | - | - | - | - | - | 7 | 37 | 5,2 |
| 205 | Çölyan | - | - | - | - | - | - | 64 | 355 | 55 |
| 206 | Təcis | - | - | - | - | - | - | 96 | 466 | 4,8 |

Yuxarıdakı cədvəldə soydaşlarımız yaşamış bəzi kəndlərin adlarına rast gəlsək də (Dəmirtəpə, Məşədiabad, Qruzinovka, Gültəpə, Hacılar, Tabahlı və s.) (6, 68) hazırda həmin kəndlər mövcud deyil. Zənnimizcə, adları çəkilən bu kəndlər sonralar digər kəndlərə qaynayıb – qarışmışdır.

Bir cəhəti də qeyd edək ki, burada həmin dövrdə şəhər və qəza mərkəzlərində yaşamış ailələr haqqında bir kəlmə də olsa danışılmır. Bunun səbəbi burada ailələrin sayının verilməməsidir. Təkcə əhalinin ümumi sayının verilməsi isə ailə tərkibini müəyyənləşdirməkdə çətinlik törədir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Аргутинского А.М. Долгорукова, В.П.Бочкарева, И. Даниловича. Тифлисско-Карсского-Эриванской железной дороги в экономическом и коммерческом отношениях. Тифлис, 1897, с. 222, 224, 226, 228, 232, 236, 240, 242.
2. Məmmədli Ş. Alın yazımız. Tbilisi, 1997, s. 69-70, 92-94.
3. Обозрение Российских владения за Кавказом. Т. 1-2, СПБ, 1836.
4. Ömərli V. Qarayazı. Bakı, «Çaşıoğlu», 2001, s. 67.
5. Səlimov T.Q. – Şağani. Abşeronlular. Bakı, «Elm», 1993.

**Aliyev A.T.**

## ON THE CONTENT OF AZERBAIJANIS LIVE IN GEORGIA IN XIX AND BEGINNING OF XX CENTURIES

***S U M M A R Y***

The article is devoted to a family life of azerbaijanians living in Georgia of XIX-XX centuries. The primary goal research is to show number of families of the given period. In this connection have been used field ethnographic and literature materials and also statistical data.

**Алиев А.Т.**

## О ЧИСЛЕННОЙ СОСТАВЕ АЗЕРБАЙДЖАНЦЕВ ПРОЖИВАЮЩИХ В ГРУЗИИ В XIX-НАЧАЛО XX ВВ.

***Р Е З Ю М Е***

Статья посвящается семейному быту азербайджанцев проживающих в Грузии в XIX-XX вв. Основной задачей исследований является показать численность семей данного периода. В связи с этим были использованы полевые этнографические и литературные материалы, а также статистические данные.